# MƏXFİLİK SİYASƏTİ

Hazırkı Məxfilik Siyasəti (bundan sonra – “**Siyasət**”) və “TOKEN AZƏRBAYCAN” MMC (bundan sonra – “***Şirkət***”) tərəfindən “ODERO” proqram təminatının istifadəçiləri sayılan Partnyorlar (bundan sonra – “***Partnyor***”) haqqında alına biləcək və https://odero.shop/ veb-saytına Partnyorlar tərəfindən yerləşdiriləcək Partnyorların konfidensial və ya kommersiya sirri hesab oluna biləcək bütün məlumatlarına şamil edilir. Şirkət və Partnyor bundan sonra ayrı-ayrılıqda “***Tərəf***”, birgə isə “***Tərəflər***” adlanacaqlar.

Bu Siyasətin məqsədi qanunvericiliyə uyğun olaraq şəffaflığın təmin edilməsi üzrə öhdəliklərimizi yerinə yetirməkdən, Partnyorları məlumatlarının saxlanacağı müddəti barədə xəbərdar etməkdən və bu məlumatların icazəsiz istifadədən və yayılmadan qorunmasından ibarətdir.

Şirkət “ODERO” proqram təminatından istifadə edən bütün Partnyorların Məxfi Məlumatlarının mühafizəsinin təmin olunması və onların üçüncü şəxslərə qeyri-qanuni və icazəsiz şəkildə açıqlanmaması öhdəliyini daşıyır.

## 1. MƏXFİLİK ŞƏRTLƏRİ

1. "Məxfi Məlumat" anlayışı Tərəflər haqqında aşağıdakı yazılı (elektron, faksimil, çap, əlyazma, Foto, fotokopil) və ya şifahi məlumat deməkdir:

1.1 təsisçilər, onlara məxsus və onlara aidiyyəti olan müəssisələr, habelə bu müəssisələrlə bağlı olan digər müəssisələr, onların nizamnamə kapitalındakı iştirak payları və investisiya haqqında məlumatlar;
1.2 bütün valyutalarda olan bank hesabları haqqında məlumatlar, bu bank hesablarının nömrələri, daxil olan və çıxan ödənişlər, hesabdan çıxarışlar, mühasibat sənədlərinin məzmunu;
1.3 Tərəflər arasında imzalanacaq istifadəçi müqaviləsinin şərtləri, məzmunu və xidmətlərin faktiki dəyəri haqqında məlumat;
1.4 əməliyyat metodları, texnologiyaları, ideyaları, proqnozları, nou-hau, əmtəə nişanları, loqotiplər, patentlər, proqram təminatı, konstruksiyalar, mənbə kodları, əqli mülkiyyət hüquqları, ticarət sirləri, ixtiralar haqqında məlumat;
1.5 inkişaf konsepsiyası, texniki proseslər, fəaliyyət və xidmətlərlə bağlı biznes planları haqqında məlumat;
1.6 müqavilənin şərtlərinin razılaşdırılması ilə bağlı danışıqlar və görüşlər daxil olmaqla tərəflər arasında aparılan istənilən danışıqların nəticələri haqqında məlumat;

1.7 rəsmi yazışmalar, telefon danışıqları, poçt sifarişləri, teleqraf, elektron poçt və digər rabitə vasitələri ilə göndərilən və ya alınan məlumatlarda əks olunan məlumatlar;
1.8 Partnyorların əməkdaşlarının kadr sənədlərində əks olunan, habelə onların şəxsiyyətini müəyyən edən şəxsi məlumatları;
1.9 kommersiya sirrinin və Məxfi Məlumatların təşkili, statusu, mühafizə üsulları və vasitələri haqqında məlumatlar;
1.10 korporativ informasiya sisteminə daxil olmaq üçün istifadə etdikləri identifikatorlar və parollar/loginlər/istifadəçi kodları;
1.11 Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq kommersiya sirri və Məxfi Məlumat hesab edilən digər məlumatlar.

2. Hər hansı Məlumat və ya məsələ aşağıdakı hallarda "Məxfi Məlumatlara" daxil edilmir: (a) hazırkı Şərtlərə uyğun olaraq açıqlanmazdan əvvəl, Məlumatı qəbul edən tərəfə artıq KİV vasitəsi ilə, ictimayyətə məlum olan və ya Tərəflərdən birinin özu haqqında yayılan məlumatlar və bu cür məlumatlılığın hər hansı məxfilik öhdəliyi pozulmadan əldə edildiyi halda; yaxud (b) Məlumatı qəbul edən tərəf hazırkı Şərtlərin müddəalarını pozmamış, məlumatlar İctimai mülkiyyətin bir hissəsinə çevrildiyi halda; yaxud (c) Məlumatı qəbul edən tərəfin, Məlumatı açıqlayan tərəf və ya onun Ortaq şirkətləri qarşısında məxfiliyə dair heç bir öhdəliyi olmayan üçüncü şəxslərdən KİV vasitəsi ilə, ictimayyətə məlum olan və ya Tərəflərdən birinin özu haqqında yayılan məlumatlar şəkildə alındığı halda.
3. Partnyor tərəfindən təqdim edilən Məxfi Məlumatlar yalnız qanunvericiliklə müəyyən olunmuş məqsədlər çərçivəsində istifadə edilir.
4. Tərəflər (i) əldə edilən və açıqlanan Məxfi Məlumatları tam və ciddi şəkildə məxfi saxlamalı, (ii) bu cür məlumatları üçüncü şəxslərə açıqlamamalı, (iii) bu məlumatlardan yalnız öz fəaliyyət istiqamətinin məqsədinə uyğun istifadə etməli və birbaşa və ya dolayısı ilə hər hansı digər məqsədlər üçün istifadə etməməlidir.
5. Hər hansı bir Tərəf digər tərəfin icazəsi olmadan birbaşa və ya dolayısı ilə Məxfi Məlumatları qəsdən və ya təsadüfən açıqladığı bütün hallarda, dərhal və yazılı şəkildə icazəsiz açıqlanması barədə digər Tərəfə məlumat verəcək və zərərin azaldılması üçün lazımi tədbirlər görəcəkdir.
6. Şirkət öhdəliklərini yerinə yetirmək üçün zəruri olan Məxfi Məlumatların təqdim edilməsini müəyyən edə bilər.
7. Partnyor öz öhdəliklərini yerinə yetirmək üçün Şirkətdən lazım olan informasiyanı almaq və hər hansı məlumatın Məxfi Məlumat kateqoriyasından ictimaiyyətə açıq informasiya kateqoriyasına keçirilməsi barədə bildiriş almaq hüququna malikdir.
8. Tərəflər Məxfi Məlumatın birbaşa və ya dolayısı ilə (hərəkət və ya hərəkətsizliklə) açıqlanmasına və ya onun təqsiri üzündən Məxfi Məlumatların yayılmasına görə tam maddi məsuliyyət daşıyır.

9. Tərəflərdən hər hansı biri məxfilik öhdəliklərini pozarsa, Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə cəlb olunacaqdır.
10. Tərəflərdən hər hansı birinin məxfilik öhdəliklərini yerinə yetirməməsi və ya lazımınca icra edilməməsi nəticəsində digər Tərəfə maddi ziyan vurulduqda, bu zərər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödənilir.
11. Şirkət bu Siyasətə istənilən zaman hər hansı əlavə və dəyişikliklər etmək hüququna malikdir.
12. Patnyor tərəfindən aşağıda göstərilən hərəkətərin edilməsi qadağandır:
- digər veb-sayt istifadəçilərini aldatmağa yönəlmiş hərəkətlər etmək;
- proqram təminatından və veb-saytdan cinayət tərkibli və ya digər qeyri-qanuni məqsədlər üçün istifadə etmək;
- hər hansı şəxsin şərəf və ləyaqətini, hüquq və azadlıqlarını pozan hərəkətlər etmək, veb-saytda üçüncü şəxslərin hüquq və qanuni mənafelərini pozan məlumatlar yerləşdirmək;
- üçüncü şəxsin adından və ya başqa şəxsin əvəzinə saytda qeydiyyatdan keçmək;
- hesabından üçüncü tərəflərin giriş və şifrəni istifadə etməsini təmin etmək;
- veb-saytda hər hansı şəxsin telekommunikasiya vasitələrinin normal fəaliyyətini dayandıra və ya poza bilən, eləcə də onların məlumatlarını qanunsuz əldə etməyə yönəlmiş kompüter virusları və proqramları yerləşdirmək.

## 2. ŞİRKƏTİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

2.1. Şirkət aşağıdakı hüquqlara malikdir:
- qüvvədə olan qanunvericiliyə uyğun olaraq Məxfi Məlumatların rejimini müəyyən etmək və yazılı şəkildə dəyişdirmək;
- kommersiya sirrini təşkil edən məlumatlardan və/və ya Məxfi Məlumatlardan qanunvericiliklə ziddiyyət təşkil etməyən şəkildə istifadə etmək;
- Məxfi Məlumat olan məlumatların əldə edilməsinə icazə vermək və ya qadağan etmək, bu məlumatların əldə edilməsi qaydasını və şərtlərini müəyyən etmək;
- qüvvədə olan qanunvericiliyə uyğun olaraq təhlükəsizlik sistemini daha da təkmilləşdirmək üçün Məxfilik Siyasətinə dəyişikliklər etmək;
- Partnyora, onun tərəfindən təqdim edilmiş elektron poçt ünvanına reklam xarakterli məlumat mesajları göndərmək. Partnyora Şirkətdən poçt göndərişlərini almaqdan imtina etmək istədiyi təqdirdə, bu barədə Şirkətə elektron poçt vasitəsi ilə yazılı şəkildə məlumat verməlidir.

2.2. Şirkət aşağıdakı öhdəlikləri daşıyır:

- Şirkət bu Siyasətə əsasən aldığı Məxfi Məlumatı qəti şəkildə gizli saxlamağa və həmin məlumatı bu Siyasətə zidd olaraq hər hansı üçüncü tərəfə açıqlamamağa razılıq verir.
- Şirkət Məxfi Məlumatın istifadəsini və təkrar istifadəsini yalnız Tərəflər arasında bağlanacaq Müqavilənin Məqsədləri üçün istifadəsinə razılıq verir və öz işçi heyətinə belə Məxfi Məlumatı açıqlamazdan əvvəl bu Müqavilə barədə işçi heyətini təlimatlandırmağı və onların üzərinə bu Müqavilədə nəzərdə tutulan öhdəlikləri qoymağı öz üzərinə götürür.
- Şirkət Məxfi Məlumatın icazəsiz istifadə edilməsi, yayılması və ya nəşr edilməsinin qarşısını almaq məqsədilə özünün bənzər xarakterli məlumatlarının qorunmasında olduğu kimi eyni ehtiyatlılıq və diqqətlə yanaşmağı öz öhdəsinə götürür;
- Məxfi Məlumatların mühafizə olunması üçün bütün hüquqi, təşkilati və texniki tədbirləri görür.

## 3. PARTNYORUN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

3.1. Partnyorun aşağıdakı hüquqları vardır:

- saytın bütün texniki imkanlarından istifadə etmək;
- saytda yerləşdirilən hər hansı ictimai məlumatı əldə etmək;
- Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən edilmiş şərtlərlə onun Məxfi Məlumatlarını üçüncü şəxslərdən mühafizə etmək;
- saytdakı məlumatlardan şəxsi və qeyri-kommersiya məqsədləri üçün istifadə etmək.

3.2. Parntyor aşağıdakı öhdəlikləri daşıyır:

- sayt vasitəsilə qeydiyyatdan keçərkən etibarlı məlumatlarını təqdim etmək;
- saytdan yalnız Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə və ağlabatanlıq və əxlaq prinsiplərinə zidd olmayan məqsədlər üçün istifadə etmək;
- saytdan istifadə zamanı öz hərəkətlərinə və ya hərəkətsizliyinə görə üçüncü şəxslər qarşısında məsuliyyət daşımaq;.

## 4. MƏXFİ MƏLUMATLARIN SAXLANMA MÜDDƏTİ

Şirkət Partnyorların Məxfi Məlumatlarını Tərəflər arasında saytdan və proqram təminatından istifadə ilə əlaqədar imzalanmış müvafiq müqavilə(lər)in qüvvədə olduğu müddətdə və müqaviləyə xitam verildiyi tarixdən etibarən 1 (bir) ay ərzində saxlayır.

## 5. BİZİMLƏ ƏLAQƏ

Məxfi Məlumatlarınızın mühafizəsi ilə bağlı hər hansı sualınız yarandığı təqdirdə bizimlə info@odero.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlaya bilərsiniz.